**Qusar rayonunda yerləşən meyvə anbarında aparılan fitosanitar monitorinqə dair məlumat**
**(29 dekabr 2022)**

Agentliyin Xaçmaz regional bölməsinin fitosanitar müfəttişləri tərəfindən mövsümə uyğun olaraq, Qusar rayonunun Həsənqala kəndində yerləşən "Qrant Garden" MMC-yə məxsus tutumu 3250 ton olan meyvə anbarında fitosanitar monitorinq həyata keçirilib.

Monitorinq zamanı anbarda saxlanan müxtəlif alma sortlarından nümunələr götürülüb və həmin məhsulların üzərində laborator müayinələr aparılıb.

Müayinələr nəticəsində anbarda saxlanan məhsulda hər hansı bir zərərli orqanizmin mövcud olmadığı müəyyən edilib.